Xalq qəzeti.- 2022.- 4 dekabr.- S. 7.

# Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**426** **Bakı şəhəri, 2 dekabr 2022-ci il**

**"Yeni növ koronavirus (COVID-19) infeksiyası ilə mübarizə tədbirlərində iştirak edən tibb işçilərinin əməkhaqlarına müddətli əlavənin müəyyən edilməsi barədə" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2020-ci il 25 mart tarixli 112 nömrəli Qərarında dəyişiklik edilməsi haqqında**

"Yeni növ koronavirus (COVID-19) infeksiyası ilə mübarizə tədbirlərində iştirak edən tibb işçilərinin sosial müdafiəsinin gücləndirilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2020-ci il 18 mart tarixli 1947 nömrəli Sərəncamının 2.1-ci bəndinə uyğun olaraq, Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

"Yeni növ koronavirus (COVID-19) infeksiyası ilə mübarizə tədbirlərində iştirak edən tibb işçilərinin əməkhaqlarına müddətli əlavənin müəyyən edilməsi barədə" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2020-ci il 25 mart tarixli 112 nömrəli Qərarının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2020, № 3, maddə 373, № 6, maddə 792, № 8, maddə 1118, № 11, maddə 1386; 2021, № 4, maddə 398, № 7, maddə 861, № 8, maddə 964, № 10, maddə 1167, № 11, maddə 1291; 2022, № 2, maddə 174, № 4, maddə 372, № 6, maddə 670; Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2021-ci il 8 yanvar tarixli 2 nömrəli və 2022-ci il 3 avqust tarixli 275 nömrəli, 10 oktyabr tarixli 386 nömrəli qərarları) 2-ci hissəsində "2022-ci il noyabrın 1-dək" sözləri "2023-cü il yanvarın 1-dək" sözləri ilə əvəz edilsin.

***Əli ƏSƏDOV***
***Azərbaycan Respublikasının***
***Baş naziri***